BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

UOT 94 (479.24)

# QAZAN XANIN DİNİ İSLAHATI (İNGLİSDİLLİ TARİXŞÜNASLIQ ÜZRƏ)

**N.P.NƏSİROV**
***Bakı Dövlət Universiteti***
***Nurlan.pasha@gmail.com***

*Qazan xan Elxanlı dövləti tarixində islahatçı hökmdar kimi tanınır. Əksər tədqiqatçılar Qazan xanın ilk islahatı kimi İslam dinini qəbul etməsini göstərir. İslamın rəsmi dövlət dini elan edilməsi Elxanlı dövləti üçün olduqca önəmli ideologiya oldu. Belə ki, İslamın ədalət prinsipi əsasında həyata keçirilən sonrakı islahatlar nəticəsində köçəri moğollarla yerli müsəlman təbəəsi arasındakı ziddiyyət aradan götürüldü və müsəlman olan moğolların ənənəvi köçəri-həyat tərzindən uzaqlaşaraq oturaq həyata keçməsinə zəmin yaratdı. Bundan əlavə sosial həyatda hələ Çingiz xan dönəmindən müsəlmanların tənəzzülə uğramış nüfuzu İslamın qəbulu ilə dirçəlməklə yanaşı, yeni dinin tələbinə uyğun olaraq ölkə ərazisində elm və mədəniyyətin inkişafına şərait yaratdı. Bu məqalədə Qazan xanın dini islahatlarını ingilisdilli tədqiqat əsərlərindən aldığımız məlumatlar əsasında təhlil etməyə cəhd göstərmişik.*

**Açar sözlər:** Qazan xan, dini islahat, ingilisdilli tarixşünaslıq

Elxanlı hökmdarı Qazan xanın (1295-1304) islahatları və islahatlarının ilki hesab edilən dini islahatı istər vətən tarixşünaslığı, istərsə də, sovet tarixşünaslığında tədqiqata cəlb olunmuş və dəyərli elmi əsərlər meydana gəlmişdir. Lakin mövcud tədqiqatlarda problemlə bağlı ingilisdilli tədqiqat əsərlərinə az müraciət olunmaqla yanaşı, Qazan xanın İslamı qəbul etməsi məsələsi ayrıca tədqiqata cəlb edilməyərək ümumi islahatların tərkib hissəsi kimi araşdırılmışdır. Bu səbəbdən, biz məqalədə Qazan xanın dini islahatını ingilisdilli tədqiqat əsərləri əsasında araşdırmışıq.

Qazan xanın İslamı qəbul etməzdən öncə dini mənsubiyyəti, həmçinin İslamın qəbulundakı məqsədi və onun sonrakı islahatlarına yeni dinin qəbulunun təsiri, islamın qəbulundakı səmimiyyəti, yeni dini nə qədər dərindən qavradığı və bir müsəlman kimi dini hökmlərə nə dərəcədə əməl etməsi, yeni dinə ənənəvi köçəri-moğol aristokratiyasının münasibəti və s. məsələlər haqqında ingilisdilli tədqiqatçılar dövrün farsdilli və ərəbdilli-məmlük tarixinə aid qaynaqlardan bəhrələnərək maraqlı, bəzən də ziddiyyətli məlumatlar verirlər.

Dövrün ən dəyərli qaynağı hesab edilən Fəzlullah Rəşidəddinin “Came

ət-təvarix" adlı kitabından aldığımız məlumatlardan məlum olur ki, Qazan Elxanlı hökmdarı Arqun xanın (1284-1291) böyük oğlu olub, 1272-ci ilin yanvarında Mazandaran ətrafında Abeskunda anadan olmuşdu (5, 188).

Hələ kiçik yaşlarından babası Abaqa xan (1265-1282), Qazanı övladı olmayan xanımı Bulgan xatuna vermiş, Çinli Yunqu da uyğur əlifbası, elm və döyüş sənətini öyrənmək üçün ona tərbiyəçi təyin etmişdi (1, 199). 1284-cü ildə Bulgan xatun vəfat edir. Bu zaman ondan irsən Qazana keçən Otağını (Bulgan xatunun xidmətçiləri, xəzinəsi və s.) moğollar ələ keçirməyə cəhd etmiş, lakin Qazan bunun qarşısını alaraq, həmin əmlakı Arqun xanın əmanəti olaraq möhürləmişdi (8, 404-405).

Məlum olduğu kimi, Arqun xan Sultan Əhməd (1282-1284) üzərində qələbə qazandıqdan sonra Azərbaycanda Elxanlı taxtına oturdu və oğlu Qazanı Xorasana əmir təyin etdi. Xorasanda vəzifədə olduğu müddətdə Rəşidəddinin xəbər verdiyi kimi, atasının fərmanlarına uyğun olaraq bu bölgədə asayişi və güvəni təmin edirdi. Qazan xanın uşaqlıqdan moğol-buddist dininə mənsub olması məsələsində ingilisdilli tədqiqat əsərləri demək olar ki, hamısı dövrün əksər qaynaqlarında verilən məlumatla razılaşırlar. Fəzlullah Rəşidəddin "Came ət-təvarix"də Qazan xanın (1295-1304) Islamı qəbul etməzdən öncə dini mənsubiyyəti haqqında yazır: "Uşaq yaşlarında böyük cəddi Abaqa xanın yanında qalırdı. Abaqa da baxşilərin (burada buddist dini kahini mənasını ifadə edir. N.N) yolu, tərzi və onların inanclarına inandığı üçün, Qazanı bir-iki böyük baxşiyə onların yollarının (inanclarının) gərəklərini öyrənməsi və alması üçün əmanət etdi... O topluluğun, qapalı, incə durumlarını, söz və davranışlarını öyrəndi və çox yüksək səviyyəyə çatdı... o, Xorasanda olduğu müddətdə Moğol adət-ənənəsinə uyğun olaraq ov edir və xüsusi hobbisi olan sənətkarlığa diqqət göstərməklə yanaşı Xabuşanda hündur buddist məbədləri inşa etdirdi" (5, 591).

Məlum olduğu kimi, Keyxatu xandan (1291-1295) sonra Baydu xanın (1295) hakimiyyəti dövründə Qazan xan ənənəvi moğol dini olan buddizmdən imtina edib, İslamı qəbul etmişdir. İlk əvvəl onu qeyd etmək lazımdır ki, Qazan xanın islamı qəbul etməsi ingilisdilli tədqiqatçılar tərəfindən müxtəlif səbəblərlə izah edilir. Bir qrup tədqiqatçılar Qazan xanın islamı qəbul etməsini xristian Baydu xana qarşı müxalifət mövqeyində dayanma istəyindən irəli gəlməsini və müsəlmanların dəstəyini almaq olduğunu qeyd edirlər (2, 6, 8). Bəzi tədqiqatçılar isə Qazanın islamı Elxanlı sarayında nüfuz sahibi və əqidəcə müsəlman olan Əmir Novruzun təhriki ilə qəbul etdiyini və hakimiyyətə keçməkdə onun dəstəyini qazanmaq məqsədi güddüyünü yazırlar (3, 9, 10, 14).

Lakin Qazan xanın İslamı qəbulu hadisəsi dövrün farsdilli, ərəbdilli mənbələrində olduqca maraqlı və aydın şəkildə əks olunmuş, bu da tədqiqatçılara Qazan xanın məqsədini aydınlaşdırmağa yardımçı olur. Belə ki, Fəzlullah Rəşidəddin "Came ət-təvarix"də Qazan xanın İslamı qəbul etməsini belə təsvir edir: "Qazan xan bütün baxşiləri və rahibləri heyrətə gətirəcək dərəcədə nəfsinə işgəncə edib, baxşilərin inanclarına aid ibadətləri yerinə yetirirdi. Bununla

yanaşı, Haqq sirlərini və doğru yolu tapmaq üçün çox cəhdlər edirdi. Bu vəziyyət Baydu ilə birlikdə olduğu vaxt əmirlərin anlaşdığı zaman, müsəlmanların Qurana, moğollarınsa qızıla and içməsinə qədər davam etdi. Novruz bu vəziyyətdə əgər Padişahi Cahanpənah (Qazan xan), İslam dinin öz inamı ilə gücləndirsə nə olar? deyə ərz etdi. Qazan xan bir müddətdir bu düşüncə xatirimdən keçir deyə cavab verdi... Novruz bu təklifi daha sonra təkrar yenə ərz etdi. Böyük şahzadə Sədrəddin İbrahim ibn Kutbu-i Övliya şeyx Sədrəddin-i Həməvinin hüzurunda idi və çox vaxt da padşahın yanında olardı. Padşah tez-tez ondan İslam dinin necə olduğunu sual edər, ondan bu haqda danışmasını istəyərdi... beləliklə Qazan xan hicri 694 Şaban ayında (16 iyun 1295) böyük şahzadə Sədrəddin İbrahim-i Həməvinin hüzurunda bütün əmirləri ilə birlikdə tövhid kəlməsini dedi və hamısı birlikdə müsəlman oldular. O ay toylar təşkil edib ibadətlə məşğul oldular. Seyidlərə, imamlara və şeyxlərə bəxşişlər təsis edərək maaş və sədəqələr verdilər. Məscidlər, mədrəsələr, xanəgahlar və xeyriyyə qurumları barəsində çoxsaylı fərmanlar verdi...”(5, 620).

“Came ət-təvarix”də qeyd olunan bu və buna bənzər məlumatlar, demək olar ki, digər farsdilli qaynaqlarda da təkrar olunur. Qaynaqdan aldığımız məlumatlardan aydın olur ki, Qazan xanın İslamı qəbul etməsində Əmir Novruzun və Şeyx Sədrəddin Həməvinin təsiri olmuşdur.

Qazan xanın İslamın hansı məzhəbini qəbul etməsi də tədqiqatçılar tərəfindən araşdırılmış və İslamın hənəfi məzhəbini qəbul etməsi yekdilliklə qəbul olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, Qazan xana kəlmeyi-şəhadəti öyrədən Şeyx Sədrəddin Həməvi dövrün məşhur şiə üləmasından dərs almış və onda sufilik meylləri olmuş, hətta Qazan xan islamı qəbul edəndən sonra ona geyinmək üçün bu şeyx öz atasının hırkasını və boynundan asmaq uçun dua göndərmişdir (2, 163).

Qazan xan İslamın hənəfi məzhəbində olmasına baxmayaraq dövrün Əli övladları, yəni əhli-şiə seyidlərinə də olduqca xoş rəftar etmişdi. Hətta Bağdad, Şiraz, İsfahan və digər böyük şəhərlərdə seyidlər üçün xüsusi evlərin tikilməsini əmr etmiş və bu iş üçün maddi vəsait ayırmışdır (12, 335). Qazan xan, 1298-ci ildə Hz. Hüseyinin məzarın ziyarət etmişdir. Hillənin üst tərəfində çay yatağı qazılmasını əmr etmiş, buradan əldə edilen suyu Kərbəlaya çatdıraraq quraq ərazilərin istifadə edilməsinə şərait yaratmışdır. Həmçinin o, 1299-cu ildə Hz. Əlinin qəbrinin ziyarətindən olduqca təsirlənmişdi (7, 220). Bununla yanaşı, o, dövrün məşhur əhli-sünnə şeyxlərinə, ürfan əhlinə, sufilərə də biganə qalmırdı. Son tədqiqatlar göstərir ki, hətta Qazan xanın İslamı qəbul etməsində məşhur türk əsilli sufi şeyxlərinin də xüsusi təsiri olmuşdur (11, 21).

1295-ci il iyunun 17-də atası Arqun xanın iqamətgahının yerləşdiyi Dəmavənd ətrafı Lar yaylağında 42 yaşında İslamı qəbul edən Qazan xan artıq Əmir Novruz, Qutluq şah komandalığı ilə Baydu xan üzərinə yürüşə çıxdı. Azərbaycana çatana qədər Baydu xanın bir çox qoşun rəhbərləri Qazan xanın tərəfinə keçdilər. Nəticədə Münəccimlərin uğurlu gün hesab etdiyi 3 noyabr 1295-ci ildə səltənət taxtına oturaraq Sultan Mahmud Qazan xan adını qəbul

etdi (8, 339).

Qazan xanın islamı qəbul etməsindən sonra ilk fərmanı bütün moğolların bu dini qəbul etməsi oldu (15, 82). Onun fərman və əmrlərinə əsasən özündən əvvəlki moğol hökmdarları dönəmində viran edilmiş məscidlərin, mədrəsələrin bərpası, həmçinin iri şəhərlərdə yeni məscidlərin tikilməsi, məscidlərin xalçalarla, yanacaqla təmin edilməsi, dini ibadət yerlərində xidmət göstərən şəxslərə müavinətlərin verilməsi, abadlıq işlərinin aparılması, hamamların tikilməsi İslamın qaydalarına uyğun olaraq insanların təmiz və rahat şəkildə ibadətlə məşğul olmasını təmin etdi.

Bununla yanaşı, Qazan xan hər bir müsəlmana qarşı hörmət və ehtiramın göstərilməsini vacib hesab etmiş, Çingiz xan yasalarının bütün dinlərə tolerant yanaşma qaydalarından imtina edərək, ölkədə olan buddist rahiblərinin ibadət etdikləri məbədlərin, həmçinin xristian və yəhudilərin kilsə və sinaqoqlarının dağıdılması əmrini vermişdi (10, 391).

Qazan xan fərmanında buddist din xadimlərindən ya İslamı qəbul etmələrini, ya da Elxanlı dövləti ərazilərini tərk edərək Hindistana, Kəşmirə, Tibetə qayıtmalarını tələb etmişdi. Hətta uşaqlığında moğol adəti ilə özünün dini tərbiyə aldığı Buddistlərə aid məbədlərin dağıdılmasını əmr edən zaman, onun bu əmrindən atası Arqunun inşa etdirdiyi və içərisində rəsminin olduğu məbəd də öz payını aldı. Söküntünü həyata keçirəndən sonra ətrafındakı moğollara belə demiş: "Atam bütpərəst idi və bu inancla da öldü. Öz adına məbəd inşa etdirmiş və ora çox sayda vəqf vermişdi. Mən o məbədi dağıtdım. Bu dağıntıdan narahat olan Moğol əmirləri ona belə cavab vermişdilər: Atan öz adına bir məbəd tikdirdi və rəsmini o məbədin divarına nəqş etdirdi. Amma indi məbəd xarabaya döndü. Yağış və qar atanın şəkli üzərinə yağmaqdadır. Əgər bu məkanı təmir etdirsən atanın ruhunu rahat etdirirərsən. Qazan xan, bu təklifi qəbul etmədi. Bu məbədin saraya çevrilməsini tövsiyə edənlərə isə belə cavab verdi: Əgər buranı saraya çevirib atamın rəsmini qorusam o zaman bu məkan saray deyil, yenə bütpərəstlərin məbədi olmağa davam edəcəkdir. Burda iqamət etmək caiz olmayacaqdır. Əgər saray tikilməsi lazımdısa, başqa bir yerdə tikilər" (5, 676).

Qazan xan bütpərəstlərdən sonra xristian və yəhudilərə qarşı da öz mövqeyini nümayiş etdirdi. Məlum olduğu kimi, Qazandan əvvəlki elxanlar dönəmində xristian və musəvilərin dövlətin ictimai həyatında imtiyazları müsəlmanlarla müqayisədə daha yüksək idi. Ancaq xristian və yəhudilərin sosial həyatdakı mövqeyinə görə Qazan xanın bu zümrəyə münasibəti bütpərəstlərə olduğu kimi kəskin olmadı. Belə ki, Xristian və müsəvilərin müsəlmanlardan fərqlənməsi üçün xristianlara bellərinə xüsusi kəmərlər bağlamaları, yəhudilərə isə sarığlarına sarı bir bez taxmaları əmr edildi. Həmçinin Təbrizdə xristian ikonaları və xaçları yandırıldı və küçələrə atıldı (15, 135-136).

Qazan xanın müsəlman olması və İslami dəyərləri əsas götürməsi, onu Moğol paytaxtı Qaraqorumdan da uzaqlaşdırmışdı. Belə ki, o, İslamı qəbul edəndən sonra zərb etdirdiyi sikkələrə "Müzaffərəd-dünya və-din Mahmud

Qazan xan" və ya "Padişahi-İslam" adlarını qeyd etdirmiş, "Elxan" titulundan imtina edərək onun yerinə sadəcə "xan" titulunu qəbul etmişdi (14, 353-356). Lakin, bununla yanaşı, bəzi numizmatik materiallarda və Qazan xanın 1302-ci ildə Papa VIII Bonifesə (1294-1303) göndərdiyi məktubunda onun ənənəvi türk-moğol "Qüdrətli Tengri"(Göy tanrı) və "Elxan" titullarından da istifadə etdiyi məlum olur (17, 32).

İslamın qəbulundan sonra Qazan xanın artıq özünü bütün ümmətin qoruyucusu və ya xəlifəsi kimi göstərmək istəməsi də dövrün mənbələrində əksini tapmışdır. Bunu biz Qazan xan dönəmində Abbasi xəlifəsinin qara rəngli bayrağını dövlətin rəsmi bayrağı elan etməsində, həmçinin müsəlman Məmlük sultanları ilə ənənəvi müharibəni davam etdirən zaman, məmlük müsəlmanlarına "Amannamə" verməsində görə bilərik. Qara rəngli bayrağın qəbulunu bir sıra ingilisdilli tədqiqatçılar Qazanın İslamı yenidən dirçəltməsi və ya 747-ci illərdə Əbu Müslimin Xorasanda qaldırdığı qara rəngli bayraq ilə də əlaqələndirirlər (2, 170).

Təbrizdə Elxanlı taxtına sahib olan Mahmud Qazan xan 1297-ci ilin noyabrında ölkə ərazisindəki müsəlman qadınlarının hicab örtməsi haqqında əmr verdi (8, 380). Həmçinin İslamın şəri qaydalarını, əmr və qadağalarını cəmiyyətdə tətbiq etməyə başladı. Belə ki, qaynaqlarda onun fərman və yarlığlarna görə şərab içənlər, həmçinin sərxoşluq edənlər cəzalandırıldı və sələmə pul verilməsi qadağan olundu (12, 337).

Son dövr nəşr edilən inglisdilli əsərlərdə Qazan xanın müsəlmanlığı səmimi və dərk edərək qəbul etməsi məsələsi tədqiqatçılar arasında müzakirəyə səbəb olmuşdur. Belə ki, bir qrup tədqiqatçılar Qazanın İslamı səmimi və dərk edərək qəbul etməsinə şübhə ilə yanaşır, həmçinin onun moğol adət-ənənəsindən tam olaraq ayrılmadığını mənbələrdən gətirilən faktları təhlil edərək öz fikirlərinin sübutuna çalışırlar. Bu yanaşma ilə bağlı əsas diqqəti çəkən Qazan xanın atasının dul qalmış xanımı Bulgan xatunla evlənməsini, Qazan xanın İslamı qəbulundan sonra şərab içməsi və niyyət ağacların ətrafında oynayaraq nəzir etməsi və bir çox hadisələrdir (13, 9).

Məlum olduğu kimi, moğol-buddist inancına görə Çingiz xan və onun xələflərindən hakimiyyətə gəlmiş yeni xaqanın atasının xanımı ilə evlənməsi faktlarına mənbələrdə rast gəlirik. Rəşiddədin məlumat verir ki, Qazan müsəlman olandan sonra atasının dul qalmış xanımı Bulgan xatunla evlənmək istəyir, lakin şəriət bunu qadağan edirdi. Amma onun ətrafında olan üləmalar buna şəriətdən leqal həll variantı taparaq bəyan edirlər ki, onun atası Arqun xan, bu xanımla evlənən zaman bütprəst (kafir) olduğu üçün bu nigah qanuni hesab olunmur və Qazan xanın Bulgan xatunla evlənməsinə şəri qaydalar icazə verir (5, 627).

Bu fakta söykənən tədqiqatçılar Qazanın İslamı hələ dərindən qavrayaraq qəbul etmədiyi fikrini irəli sürür və onu sinkretik sufi adlandırılar. Amma onu da qeyd etmək lazımdır ki, qaynaqlarda olan bu və digər məlumatlar Qazan xanın İslamı qəbul etməsinin ilkin vaxtlarına təsadüf edir və onun hələ İslamın bəzi ehkamlarını tam olaraq mənimsəməməsini göstərir.

Beləliklə, Azərbaycanda Elxanlı hökmranlığı dönəmində hakimiyyətdə olmuş Qazan xanın İslam dinini rəsmi dövlət dini elan etməsi regionda köçəri-moğol, həmçinin digər xristian və yəhudi təbəələrinin dini etiqadlarına ağır zərbə oldu. Həm də yeni dinin qəbulu köçəri-moğol və yerli oturaq əhali arasında illərdən bəri mövcud olan ziddiyətlərin aradan qalxması üçün səbəb və ya sonrakı islahatlar üçün güclü ideologiya bazası yaratdı. Qazan xanın islamı qəbul etməsini əksər inglis dilli tədqiqatçılar Elxanlılar və həmçinin Elxanlı hakimiyyəti tabeliyində olan xalqlar, xüsusilə müsəlmanlar üçün dönüş noqtəsi adlandırırlar. Bununla yanaşı, Təbriz şəhərinin mərkəz seçilməsi, belə demək mümkündürsə, onun Elxanlılara tabe ölkələrdə paytaxt rolu oynamasına səbəb olmuş, Qazan xanın əmr və fərmanları əsasında Təbriz, Həmədan, Marağa, Ərdəbil və başqa Azərbaycan şəhərlərinin abad edilməsi, yeni məscidlərin, mədrəsələrin, hamamların və s. tikilməsi şəhər mədəniyyət həyatının dirçəlməsinə səbəb olmuşdur. Həmçinin, İslamın qəbulu, Yaxın və orta Şərqdə müsəlmanların moğollar tərəfindən tənəzzülə uğradılmış nüfuzunun dirçəlməsinə və Abbasilərin süquta uğradılmış ümmətə rəhbərlik missiyasının Qazan xanın nümunəsində yenidən təşəkkül tapmasına səbəb olmuşdur. Nəticədə isə Qazan xandan sonra hakimiyyətə gələn Elxanlı hökmdarları da, bu dini siyasəti davam etdirərək İslam mədəniyyətinin inkişafına töhfələr vermişlər.


**ƏDƏBİYYAT**

1. Christopher P. Atwood. Encyclopedia of Mongolia and the Mongol Empire. New York: 2004, 676 p.
2. C.P. Melville. Padshah-i Islam: the Conversion of Sultan Mahmud Ghazan Khan. Pembroke Papers 1: Persian and Islamic Studies in Honour of P.W. Avery. 1990, p.159-77.
3. David Morgan. Medieval Persia 1040-1797. Longman. New York:1988, 197p.
4. Denise Aigle. The Mongol Empire between Myth and Reality. Boston: 2014, 393p.
5. Rashiduddin Fazlullah's Jami ʻuʼt-tawarikh. Compendium of chronicles: a history of the Mongols (English translation & annotation by W.M. Thackston).Vol III, Harvard University, Dept of Near Eastern Languages and Civilizations.1998, 819p.
6. George E. Lane. The Mongols in Iran.The Oxford Handbook of Iranian History.New York: Oxford University Press, 2012, 432p.
7. Hanifi Şahin. Camiut-Tevarhe Göre Gazan Hanın Müslümanlığı ve Bunun İlhanlı Toplumuna Yansımaları. Bilig dergisi. Bahar.2015. Sayı.73, 207-230s.
8. Howorth Henry. History of the Mongols: from the 9th to the19th century. Part III, London: 1880, 776p.
9. J.A. Boyle. “Dynastic and Political History of the Il-Khans”, in Boyle (ed.), Cambridge History of Iran V: the Saljuq and Mongol Periods. Cambridge University Press, London: 1968, 709p.
10. J. Pfeiffer. “Reflections on a ‘Double Rapprochement’: Conversion to Islam Among the Mongol Elite During the Early Ilkhanate,” in Komaroff, Beyond the Legacy of Genghis Khan, Brill press, Netherland: 2006, 391-406p.
11. Mustafa Uyar. İlhanlı hükümdarlarının İslama girmesinde rol alan Türk sufileri: İlhan Tegüder ve Gazan Han devirleri. ATATÜRK KÜLTÜR, DİL VE TARİH YÜKSEK KURUMU TÜRK TARİH KURUMU. BELLETEN. Cilt : LXXVI. Sayı 275, 2012, 7-31s.
12. Osman G.Özgüdenli. Gazan Han ve Reformları(1295-1304). Kaknüs yayınları. İstanbul: 2009, 524s.

13. Reuven Amitai. Ghazan, Islam and Mongol Tradition: A View from the Mamluk Sultanate,” BSO(A).S 59, 1996, 10p
14. Reuven Amitai. “Evidence for the Early Use of the Title Ilkhan Among the Mongols”. Journal of the Royal Central Asian Society 3 (1-2): 1991, 353-361p.
15. R.Ranjbar, F.Allahyari, Hussein Mir Ja'fari. A Study on the Effects of Ghazan Khan’s Reformative Measures for the Settlement of the Nomadic Mongols (1295-1304). Asian Culture and History; Vol. 5, No. 2; 2013. 77-86p.
16. Saunders.J.J. The History of Mongol Conquest. University of Pennsylvania Press. Pennsylvania: 2001, 135-136p.
17. Thomas.T. Allisen. Culture and Conquest in Mongol Eurasia. Cambridge University Press. London: 2001, 212p.

## РЕЛИГИОЗНЫЕ РЕФОРМЫ ГАЗАН ХАНА (НА ОСНОВЕ АНГЛОЯЗЫЧНЫХ ПРОИЗВЕДЕНИЙ)

**Н.П.НАСИРОВ**

### РЕЗЮМЕ

Газан хан, первый великий хан монголов, который пытался ввести административную, политическую и религиозную реформы в своей империи. Большинство исследователей заявляют, что обращение Газан хана в ислам его первая реформа. Это событие стало одним из важнейших факторов, ускоривших изменения в пределах институционального и идеологического контекста в государстве Хулагуидов. В результате преобразования была устранена несовместимость между Илханидским государством и верными подданными. С принятием ислама Газан ханом, исламские ценности стали частью образа жизни монголов и это привело к отказу от монгольских традиций и обычаев.

В настоящей работе предпринята попытка исследовать обращение Газан хана в ислам и религиозную реформу на основе англоязычной историографии.

**Ключевые слова:** Газан хан, религиозные реформы, англоязычной историографии.

## THE RELIGIOUS REFORMS OF GAZAN KHAN (ON THE BASIS OF ENGLISH WORKS)

**N.P.NASIROV**

### SUMMARY

Gazan Khan is the first great Mongol khan who attempted to introduce administrative, political and religious reforms to his empire. The majority of data proves that conversion to Islam is Gazan Khan’s first reform. That event was one of the most important factors that accelerated changes within an institutional and ideological context in the Ilkhanate Empire. Gazan’s conversion eliminated the incompatibility between the İlkhanate government and loyal subjects. With Gazan’s conversion, Islamic values became a part of the private life of the Mongols and it led to the abandonment of the Mongolian traditions and customs.

We attempt to investigate Gazan’s conversion to İslam and his religious reforms on the basis of English historiography.

**Keywords:** Gazan khan, religious reforms, English-language historiography.